Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Ermənistandan idxalın bərpası üçün şərtləri açıqlayıb

indicə




Ermənistanda bazar

Ermənistandan Rusiyaya kənd təsərrüfatı məhsullarının idxalının bərpası üçün onların təhlükəsizliyi təmin edilməli, məcburi tələblər yerinə yetirilməlidir. Rusiyanın "İnterfaks" xəbər agentliyi ölkənin Kənd Təsərrüfatı Nazirliyinin bu mövqedə olduğunu açıqlayıb.

Məcburi tələblərə isə Ermənistan istehsalçılarının öz xammalından istifadə etməsi, pestisidlərə nəzarət, tədarük zəncirinin izlənməsi daxildir. Məlumata görə, Rusiyanın kənd təsərrüfatı naziri **Oksana Lut** ilə Ermənistanın iqtisadiyyat naziri **Gevorq Papoyan**ın görüşündə bu tələblər səsləndirilib. Nazirlər Almatıda Avrasiya İqtisadi İttifaqının Aqrar-Sənaye Siyasəti Şurasının VII iclası çərçivəsində görüşüblər.

Lut Rusiyaya tədarük edilən məhsulların Avrasiya İqtisadi İttifaqının baytarlıq və fitosanitar normalarına uyğunluğunu şərtsiz prioritet adlandırıb. Rusiya tərəfinə görə, qüvvədə olan normalara qeyd-şərtsiz əməl olunmalı, göndərilən məhsulların təhlükəsizliyinin təmin olunması üçün mexanizm hazırlanmalıdır.

Yerevan, hələlik, bu şərtləri şərt etməyib.

Rusiya aprelin sonlarından başlayaraq Ermənistandan meyvə, tərəvəz, quru meyvə, balıq, süd məhsullarının idxalına məhdudiyyət qoyub, bunu həmin məhsulların keyfiyyəti və təhlükəsizliyi ilə əlaqələndirib.

Rusiya prezidenti **Vladimir Putin** Yerevanı Avrasiya İqtisadi İttifaqında qalıb-qalmamaq və ya Avropa İttifaqına üzvlüklə bağlı "mümkün qədər tez" referendum keçirməyə çağırıb. Son günlər bu çağırışlar intensivləşib. Ermənistanın baş naziri **Nikol Paşinyan** isə bildirib ki, Yerevan Avropaya inteqrasiya xəttini dəyişməyəcək.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur